




***VİTALİY YAKOVLEV***

*KPMG Azərbaycan üzrə İdarəedici Partnyor (Rəhbər), KPMG Qafqaz və Mərkəzi Asiya (KPMG CCA) üzrə Investisiyalar və Kapital Bazarları departamentinin partnyoru və region üzrə İnfrastruktur sektorunun rəhbəri*


# Qafqaz və Xəzər regionu qlobal infrastruktur investisiyalarının yeni cazibə mərkəzinə necə çevrilir

## *— və bu, Azərbaycanın iqtisadi taleyini nə üçün dəyişir*

**Cəmi bir neçə il əvvəl qlobal infrastruktur investisiyaları haqqında söhbətlər, demək olar ki, həmişə Qərbi Avropa, Şimali Amerika və ya Yaxın Şərqlə başlayırdı. Bu gün isə bu müzakirələrin diqqət mərkəzi Qafqaz və Xəzər regionuna doğru dəyişir.**

**Beynəlxalq investorlar, inkişaf bankları və institusional fondlarla işləyərkən mən müşahidə edirəm ki, infrastruktur iqtisadi siyasətin köməkçi elementi olmaqdan çıxaraq qlobal rəqabətin əsas aktivinə çevrilir. Söhbət təkcə yollar, limanlar və ya energetikadan deyil, ölkələrin yeni ticarət marşrutlarına, dəyər zəncirlərinə və investisiya axınlarına inteqrasiya olunmaq qabiliyyətindən gedir.**

**Məhz bu kontekstdə bu gün Qafqaz və Xəzər regionu yeni əhəmiyyət qazanır, Azərbaycan isə bu proseslərin mərkəzində yer alır. Bu proses təsadüfən deyil, son illərdə qəbul edilmiş ardıcıl infrastruktur qərarlarının nəticəsi olaraq baş verir.**

**İnvestorlar nə üçün məhz indi diqqət yetirirlər?**

Praktiki baxımdan bu, situativ trend deyil, bir neçə fundamental dəyişikliklərin nəticəsidir.

1. İnstitusional infrastruktur investisiyaları qlobal miqyasda artır, çünki bu aktivlər kapital bazarındakı bir çox maliyyə alətlərindən daha çox proqnozlaşdırıla bilən pul axınları təqdim edir.

2. İnfrastrukturun rəqəmsallaşdırılması və süni intellektin tətbiqi aktivlərin daha səmərəli idarə olunmasına, əməliyyat xərclərinin azalmasına və sistemlərin dayanıqlığının artmasına imkan verir.

3. Ekoloji, sosial və idarəetmə (ESG) tələbləri məcburi meyara çevrilir və bu prinsipləri inteqrasiya edən ölkələr "yaşıl kapitalın" daha böyük payını cəlb edirlər.

Bu tendensiyaların bir çoxu KPMG-nin beynəlxalq "Emerging Trends in Infrastructure and Transport 2025" hesabatında ətraflı təsvir olunmuşdur. Hesabatda dayanıqlılıq, ESG və rəqəmsallaşma 2025–2026-cı illər üçün infrastruktur layihələrinin uğurunun əsas amilləri kimi göstərilir.

Biz öz praktiki fəaliyyətimizdə görürük ki, bu meyarlar artıq nəzəri xarakter daşımır — bu gün investisiya qərarları məhz onların əsasında qəbul olunur.

Hesabatın nəticələrinə görə, infrastruktur institusional investorların bir neçə əsas gözləntisinə eyni anda cavab verdiyi üçün kapitalın əsas cəlbedici mərkəzinə çevrilir: gəlirlərin yüksək proqnozlaşdırıla bilməsi, klassik bazarlarla aşağı korrelyasiya və iqtisadiyyatda strateji rol. Bu tendensiya 2026-cı ildə də davam edir: qlobal fondlar vəsaitlərini infrastruktur aktivlərinə, xüsusilə energetika, logistika, şəhər xidmətləri və rəqəmsal şəbəkələr seqmentlərinə yönəltməkdə davam edirlər.




**Azərbaycan bu prosesin mərkəzinə necə düşüb?**

Azərbaycanda KPMG-nin idarəedici partnyoru olaraq mən görürəm ki, investorların ölkəyə marağı getdikcə daha çox məhz infrastrukturdan başlayır.

Azərbaycan bu proseslərin mərkəzində yerləşir. Orta Dəhliz kimi nəqliyyat dəhlizləri Çini və Avropanı Cənubi Qafqaz ölkələri vasitəsilə birləşdirərək Süveyş kanalı üzərindən keçən marşrutlara alternativ yaradır. Bu isə regionu qlobal ticarətdə strateji həlqəyə çevirir.

Bu gün Orta Dəhliz ən ucuz və ya ən sürətli marşrut kimi deyil, qlobal ticarətin diversifikasiyası və geosiyasi risklərin azaldılması aləti kimi dəyərləndirilir — məhz bu amil getdikcə daha çox investorların və yükgöndərənlərin seçimlərini müəyyənləşdirir.

Neft-qaz sektoru uzun müddət Azərbaycanın iqtisadi inkişafının əsas hərəkətverici amili olub, lakin bu gün biz keyfiyyətcə yeni mərhələyə keçidi müşahidə edirik. Yeni artım mənbələri məhz infrastruktur aktivlərinə yatırımlar vasitəsilə formalaşır ki, bu da eyni zamanda:

· iqtisadiyyatın diversifikasiyasına;

· qeyri-neft sektorlarının inkişafı üçün şəraitin yaradılmasına;

· dayanıqlı inkişafın əsasının qoyulmasına xidmət edir.

**Xəzər dənizi: yüklərin artımı artıq proqnoz deyil, trayektoriyadır**

KPMG analitiklərinin məlumatına görə, 2040-cı ilə qədər Xəzər limanlarında yük dövriyyəsi iki dəfədən çox artacaqdır.

Bu rəqəmlərin arxasında konkret marşrutlar dayanır:

· Çin — Avropa;



· Türkiyə — Mərkəzi Asiya;

· Hindistan — Qafqaz;

· Özbəkistan — Yaxın Şərq.

Praktiki baxımdan bu, bir şeyi ifadə edir: Xəzər artıq “daxili dəniz” olmaqdan çıxır və qlobal dəyər zəncirlərinin bir hissəsinə çevrilir.

Eyni zamanda KPMG tədqiqatları göstərir ki, Orta Dəhliz üzrə daşımaların ümumi vaxtının 30%-ə qədəri məhz Xəzər hissəsinin payına düşür və burada əsas rolu limanlar və bərə infrastrukturu oynayır. Bu isə Xəzərin səmərəliliyini bütün marşrutun rəqabət qabiliyyətinin kritik amilinə çevirir.

KPMG region limanlarının əməliyyat səmərəliliyini müqayisə etmişdir. Bakı (Ələt) limanında gəmilərin orta gözləmə müddəti təxminən 39 saatdır. Müqayisə üçün, İranın Xəzər limanlarında bu göstərici 130–190 saata, bəzi Rusiya limanlarında isə 220 saata çatır.

Bizim işlədiyimiz investorlar və yükgöndərənlər üçün bu, sadəcə statistika deyil. Hər əlavə gün dondurulmuş dövriyyə kapitalı, müqavilə cərimələri və marjanın itirilməsi deməkdir. Bu gün limanlar arasındakı fərq kilometrlərlə deyil, saatlarla ölçülür. Məhz buna görə yük axınları getdikcə daha çox ən qısa deyil, ən proqnozlaşdırıla bilən marşrutu seçir.

**Azərbaycan bu rəqabətdə nə üçün qalib gəlir?**

Azərbaycan ardıcıl şəkildə təkcə güclərin artırılmasına deyil, sistemli rəqabət üstünlüyünün formalaşdırılmasına investisiya edir.

Ələt limanının inkişaf planlarında aşağıdakılar nəzərdə tutulur:

· taxıl üzrə güclərin ildə 1 milyon tondan çox artırılması;

· gübrələr üzrə güclərin ildə 3 milyon tondan çox artırılması;

· konteyner terminallarının 500 min TEU-yə qədər genişləndirilməsi.

Əhəmiyyətli məqam ondan ibarətdir ki, bu investisiyalar dəmir yolu yanaşmalarının modernləşdirilməsi və limanların quru logistika ilə inteqrasiyası ilə tamamlanır ki, bu da KPMG analitikasında Orta Dəhliz üzrə müəyyən edilmiş əsas “dar boğazlar”ın aradan qaldırılmasına birbaşa xidmət edir.

Mənim fikrimcə, bu, prinsipial dəyişiklikdir: Bakı məhdud əlavə dəyəri olan tranzit nöqtəsinə deyil, universal Avrasiya logistika qovşağına çevrilir.

Məhz burada infrastruktur iqtisadiyyatın struktur amili kimi fəaliyyət göstərməyə başlayır — logistika, sənaye, rəqəmsal xidmətlər və şəhər inkişafı üçün baza yaradır.

**Logistikadan gələcəyin şəhərlərinə**

İnfrastrukturdan danışarkən nəzərə almaq lazımdır ki, bu anlayışın anlamı dəyişməkdədir. Bu gün infrastruktur artıq yalnız yollar və körpülərlə məhdudlaşmır; o, şəhər mühitini, həyat keyfiyyətini, mənzil təminatını, sahibkarlıq ekosistemini və sosial çağırışların həllini də əhatə edir.

2026-cı il Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilmişdir ki, bu da dayanıqlı urbanizasiya məsələlərinə yüksək diqqətin göstəricisidir.

Təsadüfi deyil ki, 2026-cı ildə Bakı şəhərlərin gələcəyinə həsr olunmuş əsas qlobal platforma olan “World Urban Forum”a ev sahibliyi edəcək. Bu, Azərbaycanın seçdiyi inkişaf trayektoriyasına beynəlxalq etimadın mühüm siqnalıdır.

Məmnuniyyətlə bildirirəm ki, KPMG Law WUF 2026-nın rəsmi hüquqi məsləhətçisi kimi çıxış edir. Bizim üçün bu, təkcə peşəkar tanınma deyil, həm də qlobal şəhər gündəliyinin formalaşmasına töhfə vermək imkanıdır.

Bu gün infrastruktur bir sahə deyil, dövlətlərin və investorların gələcək haqqında danışdığı dildir.

Qafqaz və Xəzər regionu coğrafi kəsişmə nöqtəsindən kapital, logistika və şəhər inkişafı marşrutlarının formalaşdığı iqtisadi qovşağa çevrilir.

İnfrastruktur, investisiyalar və strateji inkişafın kəsişməsində ixtisaslaşan ekspert kimi mən əminəm ki, Azərbaycan bu prosesdə sadəcə iştirak etmir — Azərbaycan onu formalaşdırır. Məhz bu cür ardıcıl qərarlar ölkənin uzunmüddətli iqtisadi taleyini müəyyən edir.